# Təsviri incəsənət

DƏRSLİK

4



LAYİHƏ

Təsviri incəsənət 4 DƏRSLİK



HEYDƏR ƏLİYEV
AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

LAYİHƏ

YEGANƏ CƏLİLOVA
KƏMALƏ CƏFƏRZADƏ

# TƏSVİRİ İNCƏSƏNƏT

# 4

Ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün
Təsviri incəsənət fənni üzrə
DƏRSLİK

LAYİHƏ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**bn@bakineshr.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

BAKI NƏŞR

Bakı – 2019

# KİTABIN İÇİNDƏKİLƏR



## 1 DOĞMA İNCƏSƏNƏTİN MƏNBƏYİ

1. İnsan tikir, bəzəyir, təsvir edir . . . . . . . . . . . . . . . . . . . 8
2. Tikililərin müxtəlifliyi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 10
3. Doğma diyarın rəngarəng təbiəti . . . . . . . . . . . . . . . . 12
4. Torpağımızın nemətləri . . . . . . . . . . . . . . . . . . . . . . . . 16
5. Yurdumuzun insanları . . . . . . . . . . . . . . . . . . . . . . . . . 20
6. Elimizin adətləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 22
Özünü yoxla . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 25

## 2 QƏDİM ABİDƏLƏR DİYARI



7. Tariximizin yaddaşı — daş fiqurlar . . . . . . . . . . . . . . . 28
8. Türbələr — məqbərələr . . . . . . . . . . . . . . . . . . . . . . . 31
9. Qədim məbədlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 32
10. Qədim körpülər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 34
11. Qalalar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 36
12. Saraylar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 38
13. Karvansaralar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 39
Özünü yoxla . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 40

LAYİHƏ

# 3 DOĞMA YURDUN İNCƏSƏNƏTİ



14. Qədim şəhərlər . . . . . 42
15. Xalq sənəti. Misgərlik . . . . . 44
16. Süjetli xalçalar . . . . . 46
17. Novruz adət-ənənələri . . . . . 48
18. Mirzə Qədim İrəvani . . . . . 50
19. Usta Qəmbər Qarabaği . . . . . 52
20. Mir Möhsün Nəvvab . . . . . 54
21. Ömər Eldarov . . . . . 56
22. Toğrul Nərimanbəyov . . . . . 57
Özünü yoxla . . . . . 58

# 4 BÜTÜN XALQLAR YARADICIDIR



23. Gündoğan ölkə . . . . . 60
24. Şimalda, dağ və düzənlikdə yaşayan xalqlar . . . . . 63
25. Səhralıqdakı şəhərlər . . . . . 65
26. Qədim Ellada . . . . . 67
27. Orta əsr Avropa şəhərləri . . . . . 70
Özünü yoxla . . . . . 72

LAYİHƏ

Bütün xalqlar fərqli evlər tikir, özünü bəzəyir və təsvir edir. Aləmin gözəlliyi də elə bu müxtəliflikdədir.

Hər bir xalqın incəsənəti bütöv bir aləmdir. Burada hər şey bir-biri ilə bağlı, əlaqəli və təkrarolunmazdır. Məhz incəsənət insanların bir-birini başa düşməsinə kömək edir.

Bütün bunlar haqqında sən “Təsviri incəsənət” dərsliyindən məlumat ala bilərsən.

Tapşırıqları yerinə yetirmək üçün səndən yaradıcı düşüncə, çalışqanlıq və cürət tələb olunacaq.



LAYİHƏ

# 1 DOĞMA İNCƏSƏNƏTİN MƏNBƏYİ

Vətənlə tanışlıq — doğma incəsənətin mənbəyini öyrənməkdən başlayır.

Aləmin gözəlliyi haqqında insan təsəvvürləri məişət əşyalarında, tikililərdə, insanların geyimi və bəzəklərində cəmləşib.

İncəsənət — insanın qəlbinin, xarakterinin, düşüncə tərzinin ifadəsidir.



LAYİHƏ

# 1 İNSAN TİKİR, BƏZƏYİR, TƏSVİR EDİR

Tarixə səyahət

İnsan TİKİR. Ən qədim dövrlərdə daş və ağacı ilk dəfə emal edərək özünə yaşayış yeri tikən insan bacarıqlı sənətkar idi. İstifadə etdiyi materiallar isə yaşadığı ərazinin təbiətindən asılı idi. Meşəlik yerlərdə ağaclar, dağlıq yerlərdə isə daş onun ən çox istifadə etdiyi material idi.

İnsan bu gün də şəhər və kəndlərdə tikir, qurur və yaradır. Hər bir xalq bunu özü bildiyi kimi edir.



**Bilirsənmi?**
Ocaq yeri insanın ilk tikilisi idi.



İnsan BƏZƏYİR. Elə o qədim zamandan da insan özünü bəzəyərdi. Bu, əyləncə deyildi. O dövrdə bəzəyin (nişan və ya işarələrin) köməyi ilə insanlar bir-birini başa düşərdi.

İnsanın kimliyi (qəbilə başçısı, ovçu) onun bəzəyindən dərhal nəzərə çarpardı, bu bəzək insanın hansı niyyətli – dinc və ya döyüşkən olduğu haqqında məlumat verərdi.

Bu gün də insan öz evini, yaratdığı və istifadə etdiyi əşyaları bəzəyir. Xalqlar müxtəlif olduğu kimi, onların bəzəyi də fərqlidir. Dünya çox müxtəlifdir.



LAYİHƏ

İnsan TƏSVİR EDİR. Qədim ovçu heyvanları məharətlə çəkirdi. Onun rəsm aləti daş və gil parçaları idi. Mağaranın divarında heyvanı çəkərkən o, sanki onun davranışını, vərdişlərini dərk edirdi. Bu, ovun uğurlu olmasında əsas şərt idi. Təsvirin köməyi ilə insan özünü və hisslərini ifadə edirdi.

İnsanlar meşəlik, dağlıq və səhralıq yerlərdə, dənizin ortasındakı adalarda yaşayır. Buna görə də onların tikililəri, geyimləri və bəzəkləri müxtəlif olur. Qızmar səhrada isti kürk, dondurucu şaxtada isə ipək geyimdən istifadə etmək qeyri-mümkündür.







Qobustan qayaüstü rəsmləri (fraqmentlər). Azərbaycan.

**YADDA SAXLA**

**Panno** — rəssam tərəfindən çəkilmiş və ya yığılmış iriölçülü dekorativ rəsmdir. Onun ətrafı kompozisiyanı tamamlayan naxışlar və ya çərçivə ilə haşiyələnir.





- Qayaüstü rəsmlərdə ən çox hansı fiqurlara rast gəlinir?
- Qədim insan və müasir rəssamın təsvirləri bir-birindən nə ilə fərqlənir?

Vatman vərəqi, rəngli karandaşlar, flomasterlər, quaş, pastel təbaşirlər

## Tapşırıq

- Sinif yoldaşlarınla birgə qədim insanın yaşayış tərzini əks etdirən panno yarat.



LAYİHƏ

# 2 TİKİLİLƏRİN MÜXTƏLİFLİYİ

## Xalq memarlığı: konstruksiya, obraz

Qədim zamanlarda insanların yaşayış tərzi indikindən fərqlənirdi. Yerlərini tez-tez dəyişən maldarlar yığılıb-sökülən köçəri mənzilində — **alaçıqda** yaşayırdılar.

### Tanış ol

Çubuqlardan hörülərək keçə ilə örtülən dairəvi formalı alaçıqda təsərrüfatda lazım olan bütün əşyalar yerləşərdi: sandıq və yorğan-döşək, cəhrə, motal, nehrə, qab-qacaq, su daşımaq üçün — səhəng, cürdək, bardaq, kuzə...

Alaçığın bütün ağırlığı onun dirəyinə düşərdi. Girişdə xalça və ya keçə örtük asılardı.

- Alaçığın konstruksiyası — divarı və tavanı çubuqlardan idi.



Yağışlı havada bacanın üstü dəri ilə örtülürdü.





Ocaq yeri alaçığın ortasında olardı.

Alaçığın divar və dam **örtüyü** (keçə materialı).

Alaçığın konstruksiyasını saxlayan **dirək**.

Qoyun dərisindən hazırlanan dəri torbada — **motalda** pendir saxlanırdı.

**Nehrə.** Gildən hazırlanan böyük küpədə südü çalxalayaraq yağ hazırlayardılar.

Girişdən keçə və ya xalça asılardı.

LAYİHƏ

Əkinçiliklə məşğul olanların tikililəri isə **çovustan** və ya **koma** adlanırdı. Koma — “kom”, bir yerə toplamaq deməkdir; uzaq keçmişdən bizə miras qalan bu anlayışdan indi də istifadə edirik.

Kənd yalnız daxmalardan ibarət deyildi. Hər evin həyətində müxtəlif məqsədlər üçün tikililər də olurdu: buğda anbarı, su quyusu, təndir, samanlıq, tövlə, toyuq hini. Zəruri ehtiyaclar üçün nəzərdə tutulan bu tikililər sadə və rahat idi. Həyət darvazası isə birbaşa küçəyə açılırdı. Adətən, hər darvazanın öz naxışı, bəzəyi olurdu; məsələn, at nalı. Belə bəzəklərlə sığınacağını şər qüvvələrdən qoruyan insan həm də özünə xoşbəxtlik arzulayardı.



Hər bir kəndin mərkəzində meydança olardı. İnsanlar buraya böyük tədbirlərdə və bayramlarda yığışardılar.

Yurdumuzun təbiəti müxtəlif olduğu kimi, onun tikililəri də fərqli idi.

**Çovustan**ın divarları qarğıdan hörülər, saman qarışdırılmış palçıqla suvanardı. Damı isə küləşlə örtülərdi.

Damın təpəsini örtən dəri. İplə sarınan daşlar dəri və küləşi külək və yağışa davamlı edərdi.

Küləşlə örtülən dam.



**Koma** daş və ya çiy kərpicdən tikilər, damı torpaqla örtülərdi. Damın ortasında isə tüstünün çıxması üçün baca qoyulardı. Belə tikililəri **daxma** adlandırırdılar.

Baca



Sulu və nəmişlik ərazilərdə evlər yerə basdırılmış dayaqlar üzərində inşa edilirdi ki, içəridə rütubət olmasın.

- Evlər hansı formalara malikdir? Onları hansı materiallardan inşa etmək olar?
- Evin möhkəmliyi və daimiliyi nədən asılıdır?

Rəngli karandaşlar, akvarel, quaş, plastilin, rəngli kağız, PVA yapışqanı, flomasterlər, pastel təbaşirlər, qutular, çöplər, dəri kəsikləri, kiçik daşlar, kibrit çöpləri

## Tapşırıq

- Alaçıq, çovustan və ya komanın maketini hazırla. Kəndin obrazını yaratmaq üçün evin həyətində müxtəlif tikililərin konstruksiyasını düzəldə bilərsən: taxıl anbarı və su quyusu, tövlə və təndir, toyuq hini və plastilindən bir neçə ağac, insan. Onları stol üzərində necə yerləşdirəcəyini fikirləş. Bu konstruksiyanı bütün siniflə də yerinə yetirmək olar.



**Alaçıq**



**Koma**



**Daxma**

LAYİHƏ

# 3 DOĞMA DİYARIN RƏNGARƏNG TƏBİƏTİ

## Təsvirlərdə məkan obrazı. Perspektiv

Ölkəmizin təbiəti müxtəlifdir: göylərə yüksələn uca dağlar, geniş düzənliklər, yaşıl yamaclar, gümüşü çaylar, mavi dəniz...

İnsan üçün ən gözəl təbiət — onun doğulub boya-başa çatdığı diyardır.

### Perspektiv

Doğma diyarımızın təbiəti müxtəlif olduğu kimi, onu əks etdirən mənzərə təsvirləri də müxtəlifdir. Bu təsvirlərdəki obyektlərin inandırıcı görünməsi üçün onların formasının necə dəyişdiyini dərk etməliyik; məsələn, uzaqda görünən ağac və ya insan fiqurları yaxındakılardan kiçik görünsə də, bilirik ki, onların hündürlüyü təqribən eynidir. Rəssamlar da bu bilik və müşahidələrə riayət edirlər.

Təsvir zamanı eyniölçülü obyektlər müşahidəçi gözündən uzaqlaşdıqca sanki kiçilir. Bu, **perspektivin əsas qanunu**dur.

**Ekskursiya**

Doğma təbiətin rəng palitrasını seyr et. Mənzərələrdəki rəng çalarları rəssamların uydurması deyil, o, real həyat hadisəsidir.



- Verilmiş fotoşəkillərdə hansı ritm müşahidə edilir?
- Uzaq dağ yamaclarının meşə örtüyü yaxındakılardan nə ilə fərqlənir?







- Uzaqdakı dağlar nə üçün qarşıdakı qayalıqlardan kiçik görünür?

LAYİHƏ

## Üfüq xətti

Üfüq xətti (xəyali üfüqi xətt) daim müşahidəçinin gözü səviyyəsində yerləşir. Dəniz sahilində bu — səma və su, düzənlikdə isə səma və yer arasındakı sərhəddir. İnsan hündürdə dayanarsa, üfüq xətti yüksəlir, aşağıda olarsa — enir. Rəsmə başlayanda əvvəlcə üfüq xəttinin yeri müəyyən edilir.

### Tanış ol

K.Xanlarovun "Mənzərə" əsərində üfüq xətti **göz səviyyəsində** yerləşir. Təsvirin ortasından keçən üfüq xətti, sanki dağ və düzənliyi iki hissəyə ayırır.



*Kamil Xanlarov.*
Mənzərə

Dağlara doğru istiqamətlənən yolun kənar xətləri bizdən uzaqlaşdıqca sanki üfüqdəki bir nöqtədə birləşir. Bu, **qovuşma nöqtəsidir**.

Qovuşma nöqtəsi üfüq xətti üzərində, ondan yuxarı və aşağıda yerləşə bilər.



Üfüq xətti **göz səviyyəsində** yerləşir.

*K.Xanlarovun tablosundakı perspektivin sxemi*

LAYİHƏ

Əyyub Məmmədovun “Kür üzərində sakitlik” əsərində səma ilə yer sanki qovuşur. Mənzərədə üfüq xətti təsvirin ortasından xeyli **aşağıda** yerləşir. Elə təəssürat yaranır ki, rəssam hündürlükdə dayanıb.





Üfüq xətti
göz səviyyəsindən
**aşağı**da yerləşir.

*Əyyub Məmmədov.* Kür üzərində sakitlik

Məhəmməd Orucovun “Xəzərin keşiyində” əsərində üfüq xətti əksinə, **yuxarıda** yerləşir. Burada Neft daşları və gəmilərin tutqun silueti dənizin soyuq rəng koloritində sanki əriyərək gözdən itir. Rəssam qağayılara daha yaxın olduğu üçün onların rəng və formasını daha müfəssəl (dəqiq) verib. Dəmir boruların isti rəng çalarlarından yeni günün günəşli olacağını müəyyən etmək çətin deyil.





Üfüq xətti
göz səviyyəsindən
**yuxarı**da yerləşir

*Məhəmməd Orucov.* Xəzərin keşiyində

LAYİHƏ

### Hava perspektivi

Müşahidəçidən uzaqda yerləşən obyektlərin nəinki ölçüləri kiçilir, hətta forma dəqiqliyi və rəng əlvanlığı itir, solğun və bulanıq olurlar. Bu, hava mühitinin təsiri nəticəsində baş verir.

Ön və arxa obyektlər (planlar) arasındakı işıq-kölgə, rəng fərqi **hava perspektivi** adlanır. Obyektlərin dəqiq görüntüsünü yalnız hava deyil, həm də işıq müəyyən edir. Bu, günün çağından, ilin fəslindən və məkandan asılıdır.



*Fotoşəkil.* Dağlarda axşamçağı



*Maral Rəhmanzadə.* Sevimli Araz

**YADDA SAXLA**

**Perspektiv** (latın dilindən tərcümədə "dəqiq görürəm" mənasını bildirir) — məkanda yerləşən obyektlərin naturada gördüyümüz kimi kağız vərəq üzərində düzgün təsvir etməyə yardım edən biliklər sistemi.

**Xətti perspektiv** — məsafədən asılı olaraq forma və ölçülərin dəyişməsi.

**Üfüq xətti** — müşahidəçinin göz səviyyəsində yerləşən "xəyali" düz xətt.

**Qovuşma nöqtəsi** — müşahidəçidən uzaqlaşan paralel xətlərin təxmini birləşmə nöqtəsi. O, üfüq xətti üzərində, müşahidəçinin gözləri qarşısında və göz səviyyəsində yerləşir.

**Hava perspektivi** — yaxın və uzaq obyektlər (ön və arxa plan) arasındakı işıq-kölgə, rəng nisbətinin dəyişməsi.

- Perspektivin hansı növləri var?
- Üfüq xətti nədir? Onu necə müəyyən etmək olar?
- Rəng çalarının əlvanlığı üfüqdə necə dəyişir? Səbəbini izah et.

Rəngli karandaşlar, pastel təbaşirlər, quaş, akvarel

Tapşırıq • Doğma diyarın mənzərəsini təsvir et. Rəsmə başlayarkən əvvəlcə üfüq xəttinin səviyyəsini müəyyənləşdir. Hava perspektivini nəzərə alaraq uzaqdakı ağaclar daha solğun göründüyü üçün onları açıq, soyuq rənglərlə boya.

LAYİHƏ

# 4 TORPAĞIMIZIN NEMƏTLƏRİ

## Natürmort: işıq-kölgə anlayışları

Doğma torpağın tükənməz sərvəti hər birimizdə heyrət və fəxr hissi oyadır. Onun nemətlərinin forma və rəng müxtəlifliyi sonsuzdur. Bərəkətli torpağımızın yetişdirdiyi məhsullara hər mövsümdə rast gəlmək olar.

Ən çox bar (məhsul) verən fəsillər — yay və payızdır.

Rəssamın kətan üzərində canlandırdığı rəngarəng və müxtəlif formalı məhsullara diqqət yetir.



*Tahir Məmmədov.*
Payız fəslinə aid natürmort

- Meyvə və tərəvəz təsvirlərində rəng və ton kontrastı haqqında danış. Hər məhsulda ton kontrastı nəyə əsasən yaranır?

Təsvirlərdə rəng və işıq-kölgə əsas ifadə vasitəsidir. Onların köməyi ilə rəssam təsvirin həqiqi və inandırıcı görünüşünə nail olur, xoş ovqat yaradır.

Biz yalnız işıq mənbəyinin köməyi ilə ətrafdakı əşyaları görə bilirik. Bu mənbə təbii — Günəş və Ay, süni — elektrik işığı, şam və ya tonqal ola bilər. Məsələn, meyvəyə diqqətlə baxsan görərsən ki, onun səthinə düşən işıq yayılaraq onu müxtəlif ton çalarlarına — ən açıqdan ən tünd rəngə kimi boyayır. Bu çalarları təsvir etmək üçün işıq-kölgə anlayışını qavramaq lazımdır.

LAYİHƏ

**İşıq-kölgə** — əşya üzərində işığın yayılmasıdır. Bu, onun formasından, səthin hamarlığından, rəngindən və işığın düşdüyü məsafədən, istiqamətindən asılıdır.

### Tanış ol

Əşyanın səthi işıqlanarkən onun bir tərəfi işıqlı (**işıq**), digər tərəfi isə tünd (**şəxsi kölgə**) olur. **İşıq** və **kölgə** — əşyanın həcmini, fəzadakı yerini müəyyənləşdirən ən vacib ifadə vasitəsidir. Həcmli forma işıq və kölgə vasitəsilə təsvir edilir. Təsvir zamanı işığın hansı tərəfdən düşdüyünü nəzərə almaq çox vacibdir.






BLİK — əşya üzərində ən parlaq yer.
İŞIQ — əşyanın səthində işıqlanan yer.
YARIMKÖLGƏ — işıqdan kölgəyə xəfif (yumşaq) keçid.
ŞƏXSİ KÖLGƏ — əşyanın işıqlanmayan səthi.
DÜŞƏN KÖLGƏ — əşyadan digər səthin üzərinə düşən kölgə. Onun forması işıq mənbəyinin hansı tərəfdən düşməsindən asılıdır.
REFLEKS — əşyanın kölgə tərəfində digər səthin işıq və rənginin əksi.

## Üfüq xəttinin üç əsas səviyyəsi

Natürmort çəkərkən əvvəlcə üfüq xəttinin səviyyəsi müəyyən edilir, sonra isə əşyaların yeri, ölçü və nisbətləri nəzərə alınır. Təsvir edənin gözləri önündəki yer **baxış nöqtəsi** adlanır.

### Baxış nöqtəsi



Baxış nöqtəsi üfüq xəttindən aşağıdadır. Əşya üfüq xəttindən yuxarıda yerləşdiyi üçün ona aşağıdan baxırıq.



Baxış nöqtəsi üfüq xətti səviyyəsindədir. Əşya üfüq xəttində yerləşdiyi üçün ona düz baxırıq.



Baxış nöqtəsi üfüq xəttindən yuxarıdadır. Əşya üfüq xəttindən aşağıdadır. Ona yuxarıdan baxırıq.

LAYİHƏ

## Sənətkar məsləhəti

**Akvarel boyalarla müxtəlif iş üsulları**

**Nəm akvarel vərəqində birlaylı rəngləmə**

Əlvan rəngə tədricən su əlavə edərək onun rəng tonunu zəiflətmək olar. Fırçanın ucu ilə vərəq üzərindəki artıq su götürülür.



**Akvarel vərəqində çoxlaylı rəngləmə: lessirovka**

Qurumuş rəng layı üzərinə eyni rəng ardıcıl yaxılarsa — dolğunlaşır. Əlvan rəngi solğunlaşdırmaq üçün sulu fırça ilə onu "yuyurlar".



**Lessirovka**

Qurumuş rəng layı üzərinə rəngin tədricən yaxılma ardıcıllığı. Yuxarıda göstərilən hər iki üsuldan istifadə olunaraq tərəvəz akvarel boya ilə təsvir edilib.

YADDA SAXLA

**Lessirovka** (alman sözü) — qurumuş rəng təbəqəsi üzərinə yeni rəngin yaxılması.



LAYİHƏ

## Natürmortun akvarellə çəkilmə ardıcıllığı

**1. Rəsmin çəkilməsi.**

Rəsmi sadə karandaşla, zəif və yüngül xətlə çəkməyə başla. Sonra artıq xətləri poz. Əşyalar qrupunun — kompozisiyanın yerləşdirilməsi haqqında düşün. İşıq və kölgənin sərhədini təxmini qeyd et.



**2. Rənglə iş.**

İşıq və kölgənin ton dəyişikliyini, əşya və fonun əsas rəngini yüngülcə yax. Akvarel boyasında ağ rəng olmadığı üçün kağızın ağlığı rəsmdə ən işıqlı yer olacaq.
Lessirovka üsulundan istifadə edə bilərsən.
**Unutma**: akvarel rəngkarlığı düzəlişləri sevmir.



**3. Rənglə işin davamı.**

Yeni rəngi quru rəng təbəqəsi üzərinə yaxmaqda davam et. Tədricən rəng tonunu lazım olan dolğunluğa çatdır, rəng çalarını tapmaq üçün palitradan istifadə et. Qab və alma üzərində blik qeyd etməyi unutma. Əşyaların şəxsi kölgəsini və düşən kölgəni tündləşdir.



**4. İşin tamamlanması.**

Detalları dəqiqləşdir. Akvarellə işlənmiş təsvir canlı və təravətli görünür, hətta ən tünd yerlərdə də rənglərin şəffaflığı hiss olunur.
Bu mərhələdə kompozisiya bütövlüyünə nail olmaq lazımdır.



- İşıq-kölgənin hansı ton çalarları ilə tanış oldun? Həmin çalarları tünddən açığa kimi sadala.
- Kölgənin istiqaməti nədən asılıdır? Fikrinizi əsaslandırın.

LAYİHƏ

Akvarel, A4 formatlı akvarel vərəqi

### Tapşırıq

- Naturadan payız məhsullarından ibarət natürmort çək. Kompozisiyanı düşün və vərəqdə məhsulları düzgün yerləşdir. İşıq-kölgə vasitəsilə onların həcmini boya ilə göstərməyə çalış.

# 5 YURDUMUZUN İNSANLARI

## Obraz: portret və məişət

Hər bir xalqın insan gözəlliyi haqqında öz anlayışı var. Xalq yaradıcılığında bu, qadın və kişi obrazıdır.

Qadın həyat mənbəyi, təbiətdir — dünyanın anasıdır. Qədd-qamətli, dağ vüqarlı, boy-buxunlu — qədim əcdadlarımızın səcdə etdiyi — ulu ana obrazıdır. Onu himayədar, evin sahibəsi kimi qəbul edir, ləyaqətini və səmimi qayğıkeşliyini, mehribanlığını qiymətləndirir, qədrini bilirlər.

Qadın gözəlliyində xoşbəxtlik və bayram təsəvvürləri yer alardı. İnsanlar inanırdılar ki, gözəllik xeyirxah və qoruyucu qüvvədir. Ona görə də qadınlar bəzəyə meyil göstərər, geyimin gözəlliyinə daim fikir verərdilər.

- Əsərdə qadın portretlərini seyr et: onlar sakitlik və mehribanlıq mücəssəməsidir, qəlbləri nurla doludur. Əlvan baş örtüyü azərbaycanlı qadın geyimini tamamlayan elementdir.



*Oqtay Sadıqzadə.*
Çaybecərən Rəhimova və Bayramovanın portreti

Kənd həyatı çox qayğılıdır. Tarlada, bostanda, evdə yorulmadan işləyən kəndli qadın bayram günləri üçün geyim də hazırlayardı. Onun bayram libası çox gözəl və heyrətamiz olardı. Öz geyimini o, əsl rəssam bacarığı ilə, məharətlə tikər və bəzəyərdi.

Xalq yaradıcılığında kişi obrazı — zəhmətkeşdir. O, maldar və ya əkinçidir. Bu anlayışlarda güclü və xeyirxah, mal-qarasına, torpağına qayğı göstərən, onları müdafiə etməyə qadir insan tərənnüm olunur.

İnsan sifəti — qəlbin və xarakterin aynasıdır. İnsanın üzünə baxmaq — onun "qəlbini görmək" deməkdir.



*Mikayıl Abdullayev.*
Çəltikçi qızlar



*Elmira Şahtaxtinskaya.*
İtkisiz böyüdəcəyəm



*Maral Rəhmanzadə.*
Azərbaycan qadınları

LAYİHƏ

- Bir-birinə bənzəyən əsərlərdə rəssamlar mənəvi oxşarlığa da nail ola bilmişlərmi?
- Əsərlərdə təsvir olunan insanların məşğuliyyətini necə müəyyənləşdirmək olar?

Rəngli karandaşlar, pastel təbaşirlər, quaş

## Tapşırıq

- Azərbaycanlı qadın və ya kişi obrazlarını — portretlərini çək. Vərəqdə necə yerləşdirəcəyini düşün, baş geyimini çəkməyi unutma.

*Uşaq rəsmləri*



*Texnika: kağız, quaş*



*Texnika: kağız, rəngli flomasterler*



*Texnika: kağız, pastel təbaşirlər*

- Zahiri görkəmini, geyimini nəzərə alaraq zəhmətkeş, xeyirxah insan obrazını və onu əhatə edən aləmi yarat. Verilmiş obrazları rəsmində istifadə edə bilərsən.



LAYİHƏ

# 6 ELİMİZİN ADƏTLƏRİ

## El bayramları

Yurdumuzda bayramla baharı qarşılayar, qışı yola salar, əkinçilik işlərinə başlayardılar. Bayramlar təsadüfi yaranmayıb, onların hər birinin öz səbəbi, öz vaxtı var.

Yurdumuzun bayramlarından ən qədimi əkinçi bayramı — şum mərasimidir. Onu mövsüm mərasimi də adlandırırlar.

### Mövsüm mərasimi

Əkinçinin həyat tərzi mövsümlərin dəyişməsi ilə sıx bağlıdır; məsələn, payızda, məhsul yığılıb qurtarandan sonra torpağın şumlanması şum mərasimi ilə başlardı. Şənlik üç gün davam edərdi: ən əvvəl, hodaqçıya və əkinçiyə xonça gətirərdilər. Xonçaya dəsmal, ağ köynək, corab, şirni və təzə buğdadan qovurğa boğçaları qoyulardı.

Torpaq şumlanan yerdə qazanlar asılardı. Hamı şum yerində bişirilmiş aşdan yeyərdi. Xəstə və qocalara şum yerindən pay göndərilərdi. Şum yerində çalıb-çağırar, yallı gedər, tonqal qalayıb üstündən atlanardılar .

Yallı gedənlər qol-qola girib tonqal ətrafında dövrə vurar və xorla nəğmə oxuyar — yazı arzular, bərəkət, bolluq istərdilər.



LAYİHƏ



*Asəf Cəfərov.* Azərbaycanım

Mərasim[1] gecəyarı bu nəğmə-çağırışla da başa çatardı. Ertəsi gün tarlada kotanlar[2], hodaqçılar[3] görünər, təzə şum başlardı.



*Ələkbər Rzaquliyev.* Öküzün nallanması

LAYİHƏ

[1]Mərasim — müəyyən qayda ilə icra olunan adət, ənənə.
[2]Kotan — yer şumlamaq üçün enli metal gavahını olan alət.
[3]Hodaqçı — öküzün başını çəkən adam.



Bayramlar yalnız əyləncədən ibarət deyil: bayram zamanı insanların davranış, geyim, nəğmə və rəqsləri, bayramın keçirilmə ənənələri, bütövlükdə — el ruhunu ifadə edir.

Həyatda hər şey dəyişsə də, bayram sevinci, bəzəkli geyimlər, hədiyyələr, dadlı yeməklər, nəğmə və rəqslər, adətlər və insanların birlik hissi qalır.

Nəsildən-nəslə keçən bu ənənələr bayramların əsas xüsusiyyəti kimi indi də qorunub saxlanılır.

A1 formatlı rəsm vərəqi (vatman), rəngli karandaşlar, pastel təbaşirlər, quaş

## Tapşırıq

- “Kənddə bayram şənliyi” pannosunu yarat. İlin hansı fəslini təsvir edəcəyini dəqiqləşdir. Şənlik və havadakı əhvali-ruhiyyə fərəhli və şən olmalıdır. Bayram şənliyi kənd meydanında ola bilər. Daxmaların necə yerləşdiyini xatırla və onları elə yerləşdir ki, gəzinti üçün yer qalsın. İnsanları bayram libaslarında təsvir etməyi unutma.
- Aplikasiya texnikası bu iş üçün yararlıdır: mənzərə və evləri çəkəndən sonra insan fiqurlarını ayrıca düzəldərək yapışdırmaq da olar. Onların yerini təsvir üzərində sürüşdürməklə əvvəlcədən müəyyənləşdir ki, daha ifadəli görünsünlər.

Nümunələrdən istifadə edə bilərsən.



1 2 3 4



LAYİHƏ

## ÖZÜNÜ YOXLA

1. Şagird rəsmlərində qovuşma nöqtəsini, üfüq xəttini müəyyən et. Üfüq xəttinin səviyyəsi bir-birindən nə ilə fərqlənir? Yaxın və uzaqda yerləşən obyektlər arasındakı fərqi izah et.





2. Rəssamların natürmortunda işıq-kölgə anlayışları haqqında bildiklərini söylə. Düşən işığın istiqamətini, üfüq xəttini, nəzər nöqtəsini müəyyən et.



Ramiz Abbasov. “Payız nemətləri”



Hicran Əlioğlu. “Lahıcın mis qabları”



Zöhrab Cabbarov. “Bağ mövsümü”

LAYİHƏ

3. Qədim insan təsvirlər və bəzəklər vasitəsilə nə demək istəyirdi?





4. Tikililəri verilmiş ardıcıllığa əsasən göstər. Onların hansı materialdan inşa olunduğunu söylə.

| Koma | Alaçıq | Çovustan |
|---|---|---|



5. İnsanların məşğuliyyətini onların geyim tərzinə əsasən müəyyən et.



LAYİHƏ

2

# QƏDİM ABİDƏLƏR DİYARI

Abidə — tək bir fiqur, tikili, hətta bütöv bir şəhər ola bilər.

Hər bir abidənin təkrarolunmaz siması, öz xarakteri və taleyi var.

Xalqın inkişaf tarixi, yaddaşı onun hər bir daşına həkk olunmuşdur.



LAYİHƏ

# 7 TARİXİMİZİN YADDAŞI — DAŞ FİQURLAR

Daş üzərində simvollar

Daş — uzun ömür, əbədilik rəmzidir. Əcdadlarımız ilk təsvirləri məhz daş və qayalar üzərində çəkmişlər. Qobustan qayaları üzərində qədim insanın **cızma** üsulu ilə həkk etdiyi rəsmlər əsl möcüzədir. Bu rəsmləri uzaqdan seyr edəndə onlar sanki canlanır — ovçuların şücaəti, heyvanların qıvraqlığı qədim insanın istedadından, qeyri-adi həssaslığından və müşahidəsindən xəbər verir.

## Cızma üsulu

Əcdadlarımızın daş və qayalar üzərində cızdıqları ilk təsvirlər

Qobustan qayaüstü rəsmləri



Zaman keçdikcə **yonma, oyma** üsulunu öyrənən insan daş üzərində qabarıq naxış və həcmli fiqurlar yaratmağa başladı. Müxtəlif mərasimlər, hadisələr üçün nəzərdə tutulan bu abidələrin bəzəyi də müxtəlifdir.

**Daş üzərində yonma və oyma üsulu**

Naxışların müxtəlifliyi







LAYİHƏ

Əcdadlarımız daşı müqəddəs saymış və daş fiqurların onları şər qüvvələrdən qoruduğuna inanmışlar.

Mərdlik və cəsarət rəmzi olan qoç, zənginlik və şərəf rəmzi olan at qədim insanın ən çox təsvir etdiyi heyvan fiqurları idi. Onların ümumi əlaməti eyni olsa da, bəzək elementləri müxtəlifdir.

## Tanış ol

Əcdadlarımızın sitayiş etdikləri bu insan fiquru **daş büt** adlanır. Fiqurun ön və arxa hissəsinin bəzəkləri yonma və oyma üsulu ilə işlənib.



Ön görünüş　　Arxa görünüş

**Daş büt**

Üzərində qılınc və yay-ox təsviri olan qoç fiquru onun sahibinin cəsur igid olduğunu göstərir. Bu simvol həm də fiqurun bəzəyidir.



Qoç fiqurlarını bəzəyən ritmik nəbati naxışlar onu daha da gözəlləşdirir və sərilmiş xalçaya bənzəyir.



At fiqurlarının ümumi görünüşü eyni olsa da, bəzəkləri fərqlidir.



Daş üzərindəki **relyef** formaların dekorativliyi bu naxışları həkk edən mahir sənətkarın bacarığından xəbər verir. Onların gözəlliyi də daş kimi əbədidir.

LAYİHƏ

**YADDA SAXLA**

**Relyef** (latın sözü) — qabartma deməkdir. Heykəltəraşlığın bir növüdür, səth üzərində qabarıq təsvirdir. Öndən (qarşıdan) baxmaq üçün nəzərdə tutulur.

- Cızma və oyma üsulu nə ilə fərqlənir?
- At və qoç fiqurları hansı əlamətlərə görə fərqlənir?

A4 formatlı rəsm vərəqi, plastilin və ya gil

## Tapşırıq

- Heyvan fiquru yap. Əvvəlcə kağız üzərində eskizini çək. Sonra onun relyefini — plastilin üzərində qabarıq təsvirini yarat. Üzərini cızma üsulu ilə simvollarla bəzə. Verilmiş nümunədən istifadə edə bilərsən.



1



2



3



4



LAYİHƏ

# 8 TÜRBƏLƏR — MƏQBƏRƏLƏR

Memarlıqda forma, naxış, ritm

**Türbə** adlanan qədim tikililərə ölkəmizin müxtəlif guşələrində rast gəlmək olar. Onlar xatirə memarlığına aid ən gözəl nümunələrdir. Belə tikililər tanınmış insanların xatirəsini əbədiləşdirmək üçün ucaldılardı. Onların üzərindəki naxışlar insanın yaşadığı aləmlə sıx bağlı idi.

Əcdadlarımız ornamentləri qoruyucu qüvvə hesab edər, onun sehirli gücünə inanardılar. Ətraf aləmin müxtəlifliyi bu ornamentlərdə simvollara — rəmzi işarələrə çevrilərdi.

Nəbati naxışlar, həndəsi fiqurlar, dalğalı xətlər, ulduz təsvirləri, hərflər bu tikililərdə ən çox istifadə edilən elementlər idi.

Türbələr qədim yaşayış tikililərindən fərqli olaraq daha yığcam və təmtəraqlı olardı. Adətən, onların forması oval və çoxbucaqlı olur.

Seyr et. İstedadlı sənətkarların yaratdıqları memarlıq nümunələrinin forma və naxış müxtəlifliyinə, naxışların səth üzərində həkk olunmasına diqqət yetir.

Türbələri bəzəyən naxışlar



Göy Günbəd türbəsi. *Marağa*



Həndəsi naxışlar (fraqment)



Hərflərdən yaradılmış ornament. Müxtəlif bucaq altında düzülən hərflər naxışlara çevrilir.



Qarabağlar türbəsi. *Naxçıvan*

**YADDA SAXLA**
**Türbə** (türk sözü) — "duran", "əbədi ev" deməkdir.

- Tikililər üzərində ornamentin rolu nədən ibarətdir?
- Türbələrin ümumi əlamətləri hansılardır?

Rəngli karandaşlar, qara qələm, flomasterlər, rəngli kağızlar, yapışqan, qayçı







LAYİHƏ

## Tapşırıq

- Müxtəlif formalı türbə siluetləri çək. Üzərini həndəsi fiqurlar, nəbati naxışlar, dalğalı xətlər, ulduz təsvirləri və ya hərflərlə bəzə. Bu tapşırığı aplikasiya texnikasında rəngli kağızlar vasitəsilə də hazırlamaq olar.

# 9 QƏDİM MƏBƏDLƏR

Tarixə səyahət: Açıq səma altında muzey

Şəhərlərdə, düzənlik və ya dağlar qoynunda ucaldılan **məbəd**lərin insanlar üçün əhəmiyyəti böyük idi. Ətrafda yaşayan əhali dini ayin və mərasimlər keçirmək, ibadət etmək üçün buraya yığışardılar.

Keçmişdən bizə miras qalan bu tikililər müxtəlif forma və ölçüyə malik idi.

## Tanış ol

Yanardağ – Xəzər dənizinin yaxınlığında, Abşeron torpağında əbədi məşəli xatırladan əsil təbiət möcüzəsidir; yağış və qarın yağmağına baxmayaraq, o, gündüz və gecə daim yanır.

"Yanardağ" — yurdumuzdakı təbiət abidələrindən biridir.



Yanardağ

Abşeron torpağında yerləşən digər abidə isə qədim insanın təbiət qüvvələrinə səcdə etdiyi dövrdən qalan "Atəşgah" məbədidir. Bu məbədi ziyarət edən atəşpərəstlər təbiətin qüdrətinə inanar, dini ayinlər icra edərdilər.

Məbəd bərabərtərəfli dördbucaq formasındadır. Onun dörd tərəfində də girişi var. Damın küncləsrindəki dördbucaq daş piyalələrdəki məşəllər qaranlıqda ətrafa nur saçır.

"Atəşgah". Mərkəzi alov məbədi



Gündüz görünüşü



Gecə görünüşü

LAYİHƏ

**YADDA SAXLA**

**Atəşgah** — ibadətgah kimi istifadə edilmiş alov məbədidir. Onun adı "Alov evi" və ya "Alov yeri" anlamını verir.

Qafqaz dağlarının qoynunda yerləşən Şəkinin Kiş kəndində qədim Alban kilsəsi ucalır. O, yurdumuzun ən qədim memarlıq abidələrindəndir.

Məbədin dam örtüyünün forması altıbucaqlı piramida və konusu xatırladır. Onun dam örtüyü **günbəz** və ya **qübbə** adlanır. İşıq tikilinin içərisinə yuxarıdakı pəncərələrdən, yəni səmadan düşür.

Kiş kəndindəki kilsə. *Şəki*



Ön görünüş



Arxa görünüş




**YADDA SAXLA**

**Günbəz, qübbə** — yarımkürə və ya konus formalı dam örtüyü.
**Məbəd** — insanların dini sitayiş üçün istifadə etdiyi məkan.
**Tağ** — alaqapı, əsas giriş qapısı.

- Kilsə və məbədlər nə üçün inşa olunardı?
- Yaşadığın şəhərin (rayonun) hansı məbəd və kilsələrini tanıyırsan?

Rəngli karandaşlar, pastel təbaşirlər, quaş

## Tapşırıq

- Qədim məbədi və onu ziyarət edənləri təsvir et. Məbədlər dağ, düzənlik və ya kənddə yerləşə bilər.

LAYİHƏ

# 10 QƏDİM KÖRPÜLƏR

Konstruksiya, simmetriya, ritm

Yurdumuzun bol sulu çay sahillərini, çətin keçidi olan dağ yollarını birləşdirən körpülərin tarixi çox qədimdir. Bu körpülərin dayaqları təbii özül – sahil və qayalar üzərində inşa edilərdi.

Körpülər müxtəlif olur: taxta körpü, asma körpü, daş körpü, açılan körpü və s. Ən davamlı və uzunömürlü körpülər daşdan tikilir. Onları tikmək çox ağır və zəhmətli işdir.

Keçmişdə körpü ölkənin qüdrət və firavanlıq simvolu sayılardı. Müasir dövrümüzə qədər gəlib çatan bu körpülər insan əməyinin nələrə qadir olduğunu göstərir.

## Tanış ol



Taxta körpü



Asma körpü



Daş körpü

**Seyr et.** Tağlar Xudafərin körpülərinin bəzəyidir. Onlara aşırım da deyərdilər. Körpünün özülü çay daşlarından, tağlar isə kərpicdən tikilərdi. Tağların ritmik təkrarı bu körpülərə xüsusi gözəllik verir.



Xudafərin körpüləri. *Cəbrayıl*

LAYİHƏ

- Müxtəlif körpülərin oxşar xüsusiyyətlərini sadala.
- Körpü konstruksiyasının elementlərini daha hansı tikililərdə görmək olar?

Daş və kərpic materialdan tikilən körpülərin ən məşhuru Xudafərin körpüləridir. Araz çayı üzərində salınan bu körpülər vətənimizin şimal və cənub ərazilərini birləşdirirdi.

## Ekskursiya

Qazançı körpüsü və ya "Qozbel körpü". *Naxçıvan*



Qırmızı körpü. *Qazax*



Əyri körpü. *Gədəbəy*







Açılan körpü

- İki Xudafərin körpüsü var. Böyük körpü 15 tağlı, kiçik körpü 11 tağlıdır.




LAYİHƏ

Quaş, akvarel, pastel təbaşirlər

## Tapşırıq

- Körpülərdən birini çək, ətrafında nələrin olduğunu və harada yerləşdiyini göstər. Kompozisiyanı süjetli rəsmə kimi tamamla.

# 11 QALALAR

Müdafiə tikililəri: simmetriya, proporsiya, ritm

Müxtəlif dövrlərdə insanlar özlərini düşmənlərdən qorumaq üçün qalalar tikiblər. Onlar, adətən, təpəliklərdə və ya açıqlıqda olan yerlərdə tikilərdi ki, ətrafda baş verənlər buradan daha aydın görünsün. Yadelli düşmən hücum edərkən əhali qalaya çəkilərək müdafiə olunardı.

Müdafiə məqsədilə inşa olunan tikili — qalanın fundamenti qoyularkən əvvəlcə ərazi, məkan seçilər, onun harada yerləşəcəyi müəyyənləşərdi. Ərazi sıldırım qayalıq və ya çay sahili olardısa, şəhərin müdafiəsi daha etibarlı hesab olunardı. Enli **hasarı** olan qalalar möhkəmlik rəmzi sayılırdı. Hər hansı möhkəm bir tikilini bu gün də qalaya oxşadırlar.

Yuxarıdan baxsaq, bu qalaların əksəriyyəti düzbucaqlını xatırladır.

Ramana və Mərdəkan qala-qəsrləri təpə üzərində dayanan pəhləvanı xatırladırlar. Qala hasarının zirvəsi **qurşaq**la tamamlanır. Şah tacını xatırladan bu qurşaq, əsasən, qala sakinlərini həm düşməndən qoruyar, həm də qalanı bəzəyərdi.

Qalanın ən hündür hissəsi həm də xəbərdarlıq məqsədi ilə istifadə olunardı; məsələn, düşmən üzərində qələbə və ya təhlükə zamanı orada "xəbərdarlıq" tonqalı qalanardı.

## Tanış ol

Ramana qala-qəsri.
*Abşeron*



Mərdəkan
qala-qəsri.
*Abşeron*



LAYİHƏ



Mərdəkan qalası.
*Abşeron*




**YADDA SAXLA**
**Hasar** — tikilinin ətrafına çəkilən divar.
**Qurşaq** — hasarı tamamlayan başlıq.




- Qalalar nə üçün tikilərdi?
- Azərbaycanda olan daha hansı qalalar haqqında bilirsən?

LAYİHƏ

Rəngli karandaşlar, flomasterlər, akvarel

## Tapşırıq

- Qədim qalanı və onun sakinlərini çək. Enli hasarı və bəzəyi olan qurşağını da çəkməyi unutma.

# 12 SARAYLAR

## Saray həyatı

Qədim Şərq sarayları ölkə hökmdarının adı ilə tanınırdı. Sarayın şöhrəti, var-dövləti və qüdrəti ölkənin rəmzi sayılardı.

Mühüm fərmanlar — müharibə hökmü və ya sülh müqavilələri sarayın divanxanasında* elan edilərdi. Vəzir, vəkil, əyanlar hökmdarın hüzurunda hazır dayanardılar. Rəngarəng geyimlərin bəzəyinə görə onların saraydakı mövqeyi bilinərdi. Ən bəzəkli geyimi ancaq hökmdar geyinə bilərdi.



Sarayın ətrafı hündür hasarla əhatə olunardı. Qüllələrdə isə keşikçilər dayanardı. Sarayda müxtəlif tikililər — divanxana, məscid, türbə, hamamxana yerləşərdi.

Xosrovun taxta çıxması. *Orta əsr miniatürü, rəssam Ağa Mirək.*

- Sarayın ətrafı nə üçün hündür hasarla əhatə olunardı?
- Mühafizəçi və əyanların geyimində fərq nədədir?

### Tapşırıq

Rəngli karandaşlar, flomasterlər, quaş

- Saray həyatını təsvir et. Saray otaqlarından birində hökmdarı, əyanları, vəzir-vəkili də çəkməyi unutma.







LAYİHƏ

* Divanxana (fars sözü) — qədim Şərqdə şah sarayındakı rəsmi qəbul otağı.

# 13 KARVANSARALAR

Karvanlar üçün tikililər

Karvansara ticarət yollarının qovşağında tikilən, karvanların və yolçuların müvəqqəti qalması üçün nəzərdə tutulan ictimai tikilidir. “Karvan” və “saray” sözlərinin birləşməsindən yaranmış “karvansara” sözü hazırda “qonaq evi” mənasında da işlədilir.

Uzun yolun yorğunluğunu çıxarmaq üçün karvanlar belə karvansaralara üz tutardılar. Karvansaralarda insanların dincəlməsi üçün bütün rahatlıqlar mövcud idi.

Karvansaralar, adətən ikimərtəbəli inşa edilərdi. Həyətdə iri quyu olardı. Birinci mərtəbə anbar, heyvanların saxlanılması və digər təsərrüfat ehtiyacları üçün nəzərdə tutulardu. İkinci mərtəbədə isə tacirlər və səyyahlar yaşayar və istirahət edərdilər.



Karvansaranın daxili həyəti. *Şəki*



*Karvansara hücrəsi (otağı).*
Bu guşədə tacir həm dincələr, həm də həyəti seyr edərdi.

Karvansaranın ətrafını sənətkarların dükanları əhatə edərdi. Bura əsil Şərq bazarı idi — izdihamlı və səs-küylü.

- Karvansara və sarayın fərqli cəhəti hansılardır?
- Müasir dövrdə karvansaraları əvəz edən tikililər hansılardır?

Rəngli karandaşlar, flomasterlər, quaş

## Tapşırıq

- Karvansara həyətini təsvir et: izdihamlı ticarət meydançası çək, ətrafında sənətkar dükanları, qarşısında isə tacir və müştəriləri təsvir et. Heyvan və arabalar üçün də xüsusi yer ayıraraq rəsmə quyu da əlavə etsən, əsl karvansara həyətini təsvir etmiş olarsan.



LAYİHƏ

## ÖZÜNÜ YOXLA

1. Daş fiqurların adını və üzərindəki simvol-bəzəklər haqqında bildiklərini söylə.





2. Körpüləri verilmiş ardıcıllığa əsasən göstər.
Onların hansı materiallardan inşa olunduğunu söylə.

| taxta körpü | açılan körpü | asma körpü | daş körpü |
|---|---|---|---|






3. Cümlələri oxu, onların hansı tikiliyə aid olduğunu söylə.

– Karvanların və yolçuların müvəqqəti qalması üçün ictimai bina.
– Müdafiə məqsədilə inşa olunan tikili.
– Dini ayinlər və mərasimlər keçirmək, ibadət etmək üçün tikili.
– Tanınmış insanların xatirəsini əbədiləşdirmək üçün ucaldılan tikili.

| Türbə |
|---|
| Məbəd |
| Qala |
| Karvansara |

LAYİHƏ

# 3 DOĞMA YURDUN İNCƏSƏNƏTİ

Hər bir şəhərin özünəməxsus xüsusiyyəti, bənzərsiz siması, xarakteri, öz taleyi var. Xalqın tarixi, baş verən hadisələrin izi şəhərin tikililərində, məişət əşyalarında, onun naxışlarında həkk olunur.



LAYİHƏ

# 14 QƏDİM ŞƏHƏRLƏR

## Azərbaycan şəhərlərinin xüsusiyyəti

Şəhərlər birdən-birə yaranmayıb. Onlar qala və qəsrlərin əhatəsində tədricən böyümüş, boy atmış, genişlənərək inkişaf etmişdir. Qədim zamanlarda qala divarlarının əhatə etdiyi ərazidə məbəd, məscid, divanxana, hamam, saray əhlinin — hökmdar və əyanların, qoşun böyükləri və əmirlərin evləri yerləşirdi.



Şəhərin mərkəzində bazar meydanı, ətrafda isə sənətkarların emalatxana və dükanları yerləşirdi: çörəkçi, zərgər, xalçaçı, dəmirçi, dulusçu, dabbağxana*...

Qədim şəhərin məbədləri öz nəhəng görünüşü, hündür minarələri və günbəzləri ilə yaşayış tikililərindən fərqlənərdi. Tikililərin damları **kirəmit** adlanan dam örtüyü ilə örtülərdi. Bu düzbucaqlı kiçik lövhəciklər gildən hazırlanaraq sobada "bişirilərdi" ki, rütubətə davamlı olsun.

* Dabbağxana — dəri, gön emalatxanası.

LAYİHƏ

Qədim şəhərlərin əsas xüsusiyyəti onların karvan yolu üstündə yerləşməsi idi. Sənətkarların hazırladığı əşyaları yadelli tacirlər alaraq öz ölkələrinə aparardılar.

Şəhərlərin də insanlar kimi, öz xarakteri, yaşayış tərzi var.

- Şəhər üçün ən vacib tikililər hansılardır?
- "Şəhərin öz xarakteri var" ifadəsini necə başa düşürsən?



Rəngli karandaşlar, flomasterlər

## Tapşırıq

- Qədim şəhər çək. Təsəvvür et ki, ona uzaqdan, eyni zamanda, hündürlükdən, yuxarıdan baxırsan. O zaman bütün şəhəri görəcəksən. Kompozisiyanın bütövlüyünü, perspektivin qaydalarını nəzərə almağı unutma.

LAYİHƏ

# 15 XALQ SƏNƏTİ: MİSGƏRLİK

## Sənətkarlar şəhəri

Karvan yollarının kəsişdiyi yerdə salınmış qədim Gəncə şəhəri ticarət və sənətkarları ilə tanınırdı. Ən gözəl ipək, atlaz, zərxara, iplik, hətta “əl-Gəncə” adlanan paltarlar bu şəhərdə hazırlanardı. Metal ustalarının hazırladığı silah, əmək alətləri, qab-qacaq üzərində məharətlə həkk etdikləri naxışlar özünəməxsus zərifliyi ilə seçilərdi.

Gəncədə xüsusi misgərlik küçəsi var idi. Orada misdən bəzəkli, orijinal formalı qab-qacaqlar düzəldilirdi. İnsanların məişətdə və təsərrüfatda istifadə etdikləri qab-qacaqlar misgərlik sənətinin ən gözəl nümunələri sayılırdı. Qazan, tava, sərpuş, sərnic, sini, satıl, məcməyi, aftafa, səhəng, dolça və digər mis qablar forma və bəzəklərinə görə bir-birindən fərqlənirdi.

**Tanış ol**
Gəncə misgərlərinin hazırladığı mis qab nümunələri.



Mis aftafa. 19-cu əsr



Mis aftafa və ləyən. 19-cu əsr



Mis kasa. 19-cu əsr

**Bilirsənmi?** Gəncə sənətkarlarının dəmirdən hazırladığı qala darvazaları ilə bütün şəhər fəxr edirdi. Şəhərin qala divarları ilə möhkəmləndirilmiş ərazisində hökmdar sarayı, gözəl imarətlər, karvansara, məscid, mədrəsə və s. yerləşirdi.



Qədim Gəncə şəhərinin görünüşü

LAYİHƏ

- Metaldan daha hansı məmulatlar hazırlanır?
- Gəncə şəhərinin memarlıq nümunələri haqqında bildiklərini danış.

Quaş, pastel təbaşirlər, rəngli karandaşlar, flomasterlər

## Tapşırıq

- Mis qablardan ibarət natürmort çək. Kompozisiyanın quruluşunun düzgün olmasına diqqət yetir. Mis məmulatların üzərini incə naxışlarla və materialına uyğun olaraq bəzə. Rəsmin çəkilməsində aşağıdakı təsvir ardıcıllığından istifadə edə bilərsən.



Sərnic



Müxtəlif formalı səhənglər.



LAYİHƏ

# 16 SÜJETLİ XALÇALAR

Xalçalarda məişət təsvirləri

Böyük şəhərlər arasında müəyyən oxşarlıqlar olsa da, onların hər birinin təkrarolunmaz incəlikləri vardır. Bu şəhərlərin özünəməxsus adət-ənənələrini, incəsənətini həmin şəhərlərdə yaradılan **süjetli xalçalarda** da görmək olur.

Şamaxı şəhərinin xalça və ipək parçaları qədimdən məşhurdur. “Şirvan”, “Qobustan”, “Şamaxı”, “İsrafil”, “Ərciman” xalçalarını, milli naxışlarla bəzədilmiş al-əlvan yun məmulatları Şamaxının mahir ustaları toxuyublar.

Xalçaların rəng və forma ritmi səfalı təbiətin bütün rənglərini özündə əks etdirir. Məişət səhnələri təsvir olunan süjetli xalçaların dekorativ üslubu, fiqurları naxışlara çevirmək bacarığı Şamaxı xalçaçılarının məharətindən xəbər verir.

## Tanış ol

Süjetli xalçanın kənarları ornamentlərlə bəzədilmişdir. Xalçada ov səhnəsi — at üzərində ovçu fiquru, şahin, ov itləri, xalçanın künclərində isə xeyir müjdəçisi olan xoruz təsvir edilmişdir.



“Ovçuluq”. *Süjetli xalça*



LAYİHƏ

- Dekorativ-tətbiqi sənətin hansı növləri var?
- Xalça naxışlarında hansı qanunauyğunluqlar sənə tanışdır?

## Tapşırıq

- Simmetriya və ritmi nəzərə alaraq süjetli xalçanın eskizini çək. Xalçada mənzərə, məişət, ov səhnəsi və ya portret, hətta natürmort da çəkə bilərsən. Xalçanın bəzədilməsində verilmiş elementlərdən istifadə etmək olar. Təsvirin yaradılmasında simmetriya, rəng və forma ritmini, dekorativliyi unutma.





LAYİHƏ

# 17 NOVRUZ ADƏT-ƏNƏNƏLƏRİ

## Novruz bayramı təsviri sənətdə

Yurdumuzun ən qədim şənliklərindən, mərasimlərindən biri də **Novruz bayramı**dır. Novruz — baharın gəlişinə, torpağın yeni əkinə, yeni məhsula, bolluğa, firavan həyata çağırış bayramıdır.

Elimiz bu bayrama — Novruza qırx gün qalmış başlayardı. İlaxır çərşənbə daha təntənəli keçirilərdi. Axır çərşənbəyə qədər ev-eşik, həyət-baca təmizlənər, dadlı şirniyyatlar bişirilər və xəstələrə xüsusi qulluq göstərilərdi. Hamı bayramı təmizlikdə, sağlam və gümrah qarşılamağa çalışardı.

Novruzda bayram süfrəsinə yeddi cür nemətlə bəzənmiş xonça qoyulardı. "Novruz şamları" yandırıldıqdan sonra süfrə açılardı. Bayram axşamı uşaqlar bacalardan torba sallayar, həyətlərdə tonqal qalayardılar. Bu bayramda rəngarəng oyun və tamaşalar göstərilərdi.

Novruzun maraqlı oyunlarından biri də yumurta döyüşdürmək idi. İnsanlar rənglənmiş bayram yumurtalarını döyüşdürər və bu zaman qırılmayan yumurtanın sahibi qalib gələrdi. Yumurta döyüşdürmək qışla yazın, soyuqla istinin mübarizəsinin nümayişi deməkdir.

Novruzun ilk dörd günü — dörd fəslin rəmzi sayılardı.



*Ələkbər Rzaquliyev.*
Yumurta döyüşü



LAYİHƏ

*Ələkbər Rzaquliyev.*
Novruz bayramına hazırlaşırlar



*Məhəmməd Orucov.* Bayram axşamı



*Xalidə Səfərova.* Novruz



*Elmira Shaxtaxtinskaya.* Novruza hazırlıq

- Rəssam əsərlərində hansı əlamətlər Novruzun gəlişini bildirir?
- Novruz bayramı daha hansı ölkələrdə keçirilir?

Quaş, pastel təbaşirlər, rəngli karandaşlar, flomasterlər

## Tapşırıq

- Novruz mərasimlərini əks etdirən rəsm çək. Rəsmində adət-ənənələri, bayramın rəngarəng oyun və tamaşalarını göstərə bilərsən.

LAYİHƏ

# 18 MİRZƏ QƏDİM İRƏVANİ MƏMMƏDHÜSEYN OĞLU (1825–1875)

Mirzə Qədim İrəvani Qərbi Azərbaycanın İrəvan şəhərində doğulub. O, rəssamlıq sənətini ağac üzərində bədii oyma ustası olan atasından öyrənib. Yaradıcılığının ilk dövründə dekorativ sənətlə məşğul olmuş, nəqqaş və portretçi rəssam kimi fəaliyyət göstərmişdir. Azərbaycanda **dəzgah rəngkarlığının**[1] əsasını qoyan ilk sənətkarlardandır. Onun yaratdığı “Süvari”, “Rəqqasə”, “Dərviş” portretləri doğma incəsənətimizin fəxridir. İrəvaninin əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyində bu gün də nümayiş etdirilir.

O, İrəvan sərdarının sarayındakı panno və süjetli kompozisiyaları bərpa etmiş, sarayın “güzgülü zal” adlanan otağının divarında hökmdar Fətəli şah Qacarın və vəliəhd Abbas Mirzənin **monumental**[2] portretlərini yağlı boya ilə çəkmişdir. İrəvan şəhərində yerləşən bu memarlıq abidəsi erməni təcavüzü nəticəsində dağılmışdır.

Onun yaratdığı “Vicihulla Mirzə”, “Molla”, “Qadın”, “Gənc oğlan” Azərbaycan Dövlət İncəsənət Muzeyində, “Mah Tələt xanım” əsəri isə Gürcüstan Dövlət İncəsənət Muzeyində saxlanılır. Portretlər ifadəliliyi, zəngin koloriti ilə bu gün də seyrçiləri heyrətə gətirir. Rəssamın “Çiçəklər və quşlar” adlı əsəri Rusiyanın Sankt-Peterburq şəhərinin “Ermitaj” muzeyində sərgilənir.

Şərq miniatür üslubunu, xalq sənətini və Avropa rəngkarlıq ənənələrini öz yaradıcılığında birləşdirən ustadın əsərlərində dekorativlik və real üslub bir-birini tamamlayır.

M.Q.İrəvani Azərbaycan təsviri sənətinin inkişafına təkan verən və onu yeni istiqamətə yönəltməyə nail olan böyük sənətkardır.

- Azərbaycan təsviri sənətinin inkişafında M.Q.İrəvaninin hansı rolu olmuşdur?

## Tapşırıq

Quaş, pastel təbaşirlər

- Tanınmış şəxsiyyətin portretini çək və ona məxsus xüsusiyyətləri göstərməyə çalış.

[1] Dəzgah rəngkarlığı — rəssam dəzgahında (molbertdə), kətan üzərində işlənən əsər.
[2] Monumental rəngkarlıq — irihəcmli memarlıq tikililəri ilə sıx bağlı olan rəngkarlıq əsərləri.

LAYİHƏ

## TƏSVİRİ SƏNƏT QALEREYASI

Mirzə Qədim İrəvaninin İrəvan sərdarının sarayındakı panno və kompozisiyaları



Fətəli şah Qacar



İrəvanlı Həsən xan
(Sarı Aslan)



İrəvan şahzadəsi
Mah Tələt xanım



Qadın portreti



İrəvan sərdarı



İrəvan sərdarı



Oğlan portreti

LAYİHƏ

# 19 USTA QƏMBƏR QARABAĞİ (1830–1905)

Usta Qəmbər Qarabaği Şuşa şəhərində anadan olub. İstedadlı Azərbaycan rəssamı, nəqqaş və ornament ustasıdır.

Usta Qəmbər Qarabaği milli üslubda divar rəsminin ən gözəl nümunələrini yaradan sənətkardır.

Şəki xanlarının yay sarayının divar naxışlarını bərpa edərkən o, xalq sənətinin ənənəvi üslubuna yeni çalarlar əlavə etmişdir. Dekorativ və rəngkarlıq üslublarını ustalıqla “birləşdirən” sənətkarın kompozisiyaları kolorit, böyük və kiçik detalların həmahəngliyi ilə büsat* ovqatı yaradır.

Divardakı naxışlar əfsanəvi bağçanı xatırladır. Burada təsvir olunan hər bir gülün, çiçəyin öz rəngi var.

Sənətkar öz əsərlərində Şərq rəngkarlığı üçün yeni olan üsullardan istifadə etmişdir. Bu əsərlərdə dekorativ və real təsvirlər bir-birini tamamlayır.

Zəriflik nümunəsi olan bu naxışlarla sənətkar Şuşa şəhərinin bir çox evlərini də bəzəyib.

Usta Qəmbər Qarabağinin irsi: Şəki xanlarının yay sarayının divar və tavanındakı naxış və rəsmlər. Fraqmentlər



LAYİHƏ

* Büsat (ərəb sözü) — təmtəraq, dəbdəbə.













Xan sarayının divarlarını bəzəyən ov və hərb səhnələri. Fraqmentlər

Usta Qəmbər Qarabaği ənənəvi Şərq rəngkarlığına hansı yeniliklər gətirmişdir?

Quaş, rəngli karandaşlar, flomasterlər

## Tapşırıq

- Təsəvvürə əsasən ov və ya döyüş səhnələrini əks etdirən rəsm çək.

LAYİHƏ

# 20 MİR MÖHSÜN NƏVVAB (1833–1918)



Azərbaycan rəssamı Mir Möhsün Nəvvab Şuşada anadan olmuşdur. İstedadlı rəssam eyni zamanda şair, musiqişünas və xəttat* kimi də məşhur idi. Ensiklodepik (geniş məlumatlı) biliyə və nadir bacarıqlara malik olan sənətkar ilk təhsilini ruhani məktəbində almışdır. Ərəb, fars, türk dillərini, astronomiya, kimya, riyaziyyat və digər elmləri də öyrənmişdir. O, şeirlər yazmış, elmin müxtəlif sahələrinə aid kitablar nəşr etmişdir. Təsviri sənətlə məşğul olan Nəvvab rəssamlıq, xəttatlıq və kitab tərtibatı sahəsində fəaliyyət göstərən ilk sənətkarlardandır.

Nəvvab evini və dərs dediyi məktəbin divarlarını quş və çiçək təsvirləri ilə bəzəmişdir. Azərbaycanın dekorativ-tətbiqi sənətində bu bəzəklər əsl sənət nümunələri sayılırdı.

Akvarellə çəkdiyi şəkillər, miniatürlər, naxışlar və kitablarının bədii tərtibatı Azərbaycan kitab qrafikasının inkişafı üçün atılan ilk addımlardan sayılırdı.

İstedadlı sənətkar Şuşadakı Gövhərağa məscidinin bəzədilməsində də fəal iştirak etmişdir.



Rəssamın evini bəzəyən quş və çiçək təsvirləri.



Əmir Teymurun portreti

LAYİHƏ

*Xəttat — bədii yazı sənəti ilə məşğul olan insan (rəssam).



Dərviş Nurəli şahın portreti



Əbdürrəhman Caminin portreti

İllüstrasiyalar





Mir Möhsün Nəvvabın yaradıcılığının hansı cəhətləri onu digər rəssamlardan fərqləndirirdi?

LAYİHƏ

Quaş, rəngli qələmlər, flomasterlər

## Tapşırıq

• Quş və çiçək təsvirlərindən ibarət illüstrasiya çək.

# 21 ÖMƏR HƏSƏN OĞLU ELDAROV (1927)



Azərbaycanın xalq rəssamı, heykəltəraş Ömər Eldarov Dağıstan Respublikasının Dərbənd şəhərində anadan olub. Azərbaycan Rəssamlıq Məktəbinin heykəltəraşlıq bölməsini bitirdikdən sonra Ö.Eldarov Leninqrad (indiki Sankt-Peterburq) şəhərində, İ.Repin adına Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunun heykəltəraşlıq fakültəsində təhsilini davam etdirib.

İstedadlı sənətkar, Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri — şairlərdən Məhəmməd Füzuli, Xurşidbanu Natəvan, Hüseyn Cavid, bəstəkar Üzeyir Hacıbəyli, rəssam Səttar Bəhlulzadə kimi sənətkarlara həsr olunmuş abidələrin müəllifidir.

Dərin məzmunlu monumental əsərləri ilə heykəltəraşlıq sənətini yüksəklərə qaldıran məşhur heykəltəraş bir neçə nəsil istedadlı sənətkarlar yetişdirmişdir.



Məhəmməd Füzulinin abidəsi (Tokay Məmmədovla birgə işi)



Xurşidbanu Natəvanın abidəsi



Üzeyir Hacıbəylinin abidəsi

LAYİHƏ

Ö.Eldarovun yaradıcılığında təsviri sənətin hansı janrı müşahidə edilir?

## Tapşırıq

Plastilin və ya gil

- Öz portretini yapmağa çalış. Sənin üz cizgilərinə xarakterik olan cəhətləri göstər.

# 22 TOĞRUL FƏRMAN OĞLU NƏRİMANBƏYOV (1930–2013)



Toğrul Fərman oğlu Nərimanbəyov Bakı şəhərində doğulmuşdur. Azərbaycan Rəssamlıq Məktəbini, sonra isə Litva Dövlət İncəsənət İnstitutunu bitirmişdir.

T.Nərimanbəyov bir çox teatr səhnələrinin və dekorasiyalarının müəllifidir.

Onun "Göyçay bağlarında", "Bahar yarmarkası", "Nar və armud", "Çiçəklər", "Köhnə çinar", "Qız qalası" kimi heyranedici natürmort və mənzərələrindən təbiətin ətri duyulur. Onlara sanki torpağın şirəsi, Göyçay, Zaqatala və Lənkəran təbiətinin əlvan rəngləri hopmuşdur.

T.Nərimanbəyov bədii sərgilərin iştirakçısı olmuşdur. Kuba, Hindistan, Polşa, Çexiya, Slovakiya, Almaniya, Fransa, İtaliya, Rusiya və ABŞ-da dəfələrlə fərdi sərgiləri keçirilmişdir.



Göyçay bağlarında



Bakıda bahar



Nar və armud

T.Nərimanbəyovun əsərlərində hansı kolorit müşahidə edilir?

Quaş, akvarel

**Tapşırıq**

- Əlvan rəngli koloritdə natürmort və ya mənzərə çək.

LAYİHƏ

1. Əsərlərin adını söylə və hansı rəssama məxsus olduğu haqqında bildiklərini danış.

**Mirzə Qədim İrəvani**
**Usta Qəmbər Qarabaği**
**Mir Möhsün Nəvvab**
**Ömər Eldarov**
**Toğrul Nərimanbəyov**


1


2


3


4


5

2. Süjetli xalçanı müəyyən et.


a


b


c

LAYİHƏ

# 4 BÜTÜN XALQLAR YARADICIDIR

İncəsənət — gözəllik və müdriklik dünyasıdır. Onu hər bir xalq yaratmağa qadirdir.

İncəsənət  xalqların simasını, obrazını, ruhunu ifadə edir.

Hər bir xalqın mədəniyyətində gözəllik və fayda, xeyir və şər, mərhəmət və insanlığın ifadəsi təsadüfi deyil, onlar arasında daim qarşılıqlı əlaqə mövcuddur.



LAYİHƏ

# 23 GÜNDOĞAN ÖLKƏ

## Yapon incəsənəti

Səyahətə haradan başlamalı — qərar vermək asan deyil. Gəlin gündoğandan başlayaq.  Günəşin ilk şəfəq saldığı ölkəyə yollanaq.

Ucsuz-bucaqsız okeanın ortasında, suyun altından ucalan şiştəpəli hündür dağları təsəvvür et. Ada sakinləri bu ərazini Yamato — “dağlar yolu” adlandırdılar. İndi isə bu ölkə Yaponiya adlanır.

Bu diyarın təbiəti çox rütubətli və dumanlıdır. Dumanlı havada təbiəti seyr etsən, yaxın budaqda nur saçan yağış damcılarını iri və aydın, uzaqda olanları isə solğun, gümüşü çalarda, sanki yumşaq kölgə kimi görərsən.

Yaponlar mənzərələrini məhz belə görür və olduğu kimi də təsvir etməyi sevirlər: ön planın detallarını müfəssəl (dəqiq), arxa planda olanları — dağ siluetlərini, digər elementləri isə dumanlı, zəif rənglərlə çəkirlər.



Bambuk. *Tuş*



Mənzərə. *Tuş*

Adətən, bu mənzərələrdə kalliqrafiya üsulu ilə yazılmış qısa şeir parçası olur.

**Kalliqrafiya** (xəttatlıq) — gözəl və ifadəli yazı sənətidir — mətnin əhvali-ruhiyyəsini bildirir.  Belə yazılar lülə halında bükülən uzunsov kağızlarda, qara tuş və fırça ilə  yazılırdı.

Yapon evlərində onları divardan asmaq ənənəsi bu gün də yaşayır.

Kalliqrafiya. *Kağız, tuş*




LAYİHƏ

Yaponiyada daha bir qədim incəsənət növü var. Gül və budaqlardan kompozisiyaların yaradılması ənənəvi yapon incəsənəti — **ikebana** adlanır.

Bəzən ikebananı çiçək heykəli də adlandırırlar.







İkebana nümunələri

## Tanış ol

- Yapon məbədi — **paqoda** zərif qülləyə oxşayır. Hər mərtəbənin öz damı var. Bu damların əsas cəhəti — künclərin yuxarıya doğru əyilməsidir. Hərdən bu künclərə zınqırov asırlar. Meh əsəndə onlar cingildəyir.

- Yaponiyada güclü külək və zəlzələ tez-tez baş verdiyi üçün tikilən evlərin konstruksiyası yüngül olur. Yapon evində divarı siyirmələr əvəz edir. Mebelin azlığı otaqlarda genişlik təəssüratı yaradır.
  Ağcaqayın və ya şam budağı təsvirləri çəkilən qatlanan şirmalar isə zəngin evlərin otağını bəzəyir.



Paqoda




Ənənəvi yapon evi. *Sxem*

LAYİHƏ



Yapon qadınının ənənəvi geyimi **kimono** adlanır. Uzun və enli qolları olan geyimin bel hissəsini dəbdəbəli, böyük bant bəzəyir. Kimononun gözəlliyi onun naxışlarındadır.

Yapon xalqı adət-ənənələrini bu gün də qoruyur. Ən sevimli bayramları albalı ağacının — sakuranın çiçək açmasıdır. Bu dövrdə hamı təbiətin qoynuna çıxır. Təbiətin onlara bəxş etdiyi gözəlliyi seyr edərək zövq alır.

## Tanış ol

Yapon evinin daxili hissəsindəki əşyalar.




Qatlanan şirma

* Şirma (pərdə) — üzərinə parça çəkilmiş çərçivə, bükülən arakəsmə.

Kimono

*Kimono — yapon qadınının ənənəvi geyimi

- Yapon incəsənətinə xas olan cəhətlər hansılardır (təsvir, bəzək və tikililərdə)?
- Azərbaycan və yapon qadını obrazlarında hansı oxşar və fərqli cəhətləri görmək olar?

Akvarel, tuş, flomaster, pastel təbaşirlər

## Tapşırıq

- Yapon xalqının adət-ənənələrini əks etdirən rəsm çək. Bu, yapon qadınının obrazı, ənənəvi yapon evi, çiçəklənən sakura budağı və ya bağı, yaxud yapon mənzərəsi ola bilər.

LAYİHƏ

# 24 ŞİMALDA, DAĞ VƏ DÜZƏNLİKDƏ YAŞAYAN XALQLAR

Tikililərin müxtəlifliyi. Həyat tərzi

Planetimizin təbiəti müxtəlif olduğu kimi, xalqların həyat tərzi də bir-birindən fərqlənir. İnsanlar dağlarda, çay vadilərində, düzənliklərdə, həm soyuq şimalda, həm də qızmar səhralarda yaşamağı çoxdan öyrəniblər. İnsanlar təbiətə uyğunlaşaraq öz həyat tərzini qurmağı bacarırlar.

Ev insana hər yerdə lazımdır. Onun necə olması isə isti və soyuqdan, dağlıq və düzənlikdən, həm də istifadə edəcəyi təbii materialın mövcudluğundan asılıdır. Ağac, daş və kərpicdən tikilmiş evi təsəvvür etmək çətin deyil. Bəs buzdan tikilmiş evi necə?

Qar və çovğunun soyuğundan qorunmaq üçün şimal xalqı — eskimoslar — yonulmuş buz parçalarından dairəvi koma — **iqlu** tikirlər. İçəriyə xəz dərilər döşəyərək ocaq qalayırlar. Sərt şaxta onu bayırdan əriməyə qoymur.

Maralsaxlayan və ovçuluqla məşğul olan şimal xalqları **yaranqa** və **çum** adlanan alaçıqdan istifadə edirlər. Ümumi cəhətləri bizim alaçığa oxşasa da, formaları fərqlidir.





Çum


Yaranqa

Dağ kəndi qaranquş yuvalarını xatırladır. Evlər və daxmalar bir-birinin yanında və üst-üstə yerləşir. Kənd eninə yox, yuxarıya doğru tikilir. Kiçik pəncərəli mənzillərin qapısı birbaşa həyətə açılır. Yastı damı olan bu tikililər daşdan hörülür. Damda isti gecələrdə yatmaq və meyvə qurutmaq da olar. Kənd yaxından qalaya oxşayır, uzaqdan isə o, sərt qayalıqlara qovuşaraq gözdən itir.


*Maral Rəhmanzadə.* Xınalıq kəndi



LAYİHƏ



Bəs düzənlikdə necə yaşayırlar? Düzənlikdə dörd bir tərəf açıqdır. Hər tərəfə xalça kimi döşənən otlaq sahələr göz işlədikcə uzanır. Hərdən küləyin hamarladığı təpəciklər gözə dəyir. Sakitlikdən qulaq tutulur. Ucsuz-bucaqsız otlaqlar yayda və qışda ev heyvanlarının böyük sürüsünü yay-qış doyurmağa qadirdir. Buna görə də düzənlik xalqı maldarlıqla məşğul olur. Burada hamı at çapmağı yaxşı bacarır.

Düzənlik sakini ev tikərkən qoyun yunundan istifadə edir. **Yurd** (alaçıq) adlanan bu evin divarından asılan, döşəməsinə sərilən keçə və xalçalar yundan hazırlanır. Onları bəzəyən naxışlarda qırmızı çalarlar daha çox olur. Sevinc və baharın rəmzi sayılan bu ornamentlər uzaq keçmişdə — səmaya, Günəşə və ulduzlara sitayiş olunan dövrlərdə yaranmışdır.

Xalçaların qırmızı rəngli işarələrlə toxunulması həm evi şər qüvvələrdən qorumaq, həm də evdə yaşayan ailəyə firavanlıq gətirmək məqsədi daşıyırdı.

Boranlı qışın soyuğundan, payızın yağışından və yayın bürküsündən yurd insanın ən etibarlı müdafiəçisidir. Köçəri həyat sürənlər üçün yurd ən rahat mənzildir.





Yurd (alaçıq)



Yurdda istifadə olunan xalça fraqmentləri

- Şimal xalqı ilə dağ və düzənlikdə yaşayan xalqların tikililərində hansı memarlıq xüsusiyyəti var?
- Müxtəlif xalqlara məxsus alaçıqların oxşar cəhətləri hansılardır?

Akvarel, quaş, flomasterlər, pastel təbaşirlər

## Tapşırıq

- Şimalda, dağda və ya düzənlikdə yaşayan xalqların həyat tərzini təsvir et. Şimalın sərt şaxtasını, dağların əzəmətini, düzənliyin isə genişliyini göstərməyə çalış. Tikililərin özünəməxsus xüsusiyyətlərini çəkməyi unutma.

LAYİHƏ

# 25 SƏHRALIQDAKI ŞƏHƏRLƏR

## Şərq şəhərinin obrazı

Günəşin hərarətindən, su qıtlığından səhraya çevrilən çöllük... Qızmar qumsallıqda, susuzluqdan çatlayan şoranlıqda karvan çətinliklə irəliləyir. ...Yorğun səyyahların gözləri qarşısında bir anda şəhərin günbəzləri peyda olur. Bu — nağıllardakı saraylara bənzəyən şəhərdir. Şəhərin siluetini günbəzlərin sayrışan göyümtül-firuzəyi rəngləri tamamlayır.

Orta Asiya şəhəri. *Buxara*



Bu şəhər yerində möhkəm dayanıb və böyüməkdə davam edir, çünki su var. Karvan yollarının istiqaməti buraya yönəlib. Tacirlər burada dincələ və görüşə bilirlər, bu isə ticarət deməkdir. Ona görə də ticarət meydanı — Şərq bazarı olduqca izdihamlı və səs-küylüdür. Meydançada sənətkar dükanları cərgə ilə düzülüb. Piştaxtalarda mahir sənətkarların düzəltdikləri əşyalar — gümüş və mis qablar, piyalə, gil bardaq, basmanaxışlı dəri kəmərlər, mücrü, rəngarəng parça və xalçalar insanı heyran edir. Əşyaların forması sadə olsa da, üzərini ornament çələngi bəzəyir. Onların üzərindəki yarpaqlar, güllər və ləçəklər, sivri ulduzlar, yazılar məftunedici formalara çevrilir.

Şərq sənətkarlarının yaratdıqları əşyalar





LAYİHƏ

Belə naxışlar meydana baxan divarlara da həkk olunub. Divarlar enlidir, çünki gildən hörülüb. Mozaika və ya daş oymalarla bəzədilən divarda ilk nəzərə çarpan zəngin bəzədilmiş giriş qapısı — portaldır.

Pyedestal üzərində abidəni xatırladan şəhərin firuzəyi və zümrüd rəngli günbəzləri qızmar səhranın ortasında göylərə ucalır və günəşin qızılı şəfəqlərini özündə əks etdirərək bərq vurur.


Registan kompleksi. *Buxara*





- Şərq bazarında hansı qab-qacaq və bəzək əşyalarını görmək mümkündür?

Rəngli kağız, A4 formatlı rəsm vərəqi, flomasterlər

## Tapşırıq

- Rəngli kağızlardan qədim Şərq şəhərinin siluetini kəs və vərəqə yapışdır. Tikililərin üzərindəki oyma naxışları flomasterlə bəzə. Ön planda izdihamlı və səs-küylü ticarət meydanını — bazarı çək.



LAYİHƏ

# 26 QƏDİM ELLADA

## Qədim yunan incəsənəti



Müasir dünya mədəniyyətinə böyük təsiri olan ölkənin incəsənəti haqqında danışmaq üçün onun adından başlamaq düzgün olardı.

Ellada — sakinlər yaşadıqları ölkəni belə adlandırırdılar, özlərini isə ellin (şəhərin əsasını qoyan hökmdar Ellinin adı ilə) çağırırdılar. Sonradan bu ölkəni QƏDİM YUNANISTAN adlandırdılar.





İnsan idrakı, iradəsi, gücü və vücudunun gözəlliyi haqqında ilk dəfə düşünən və onu ilk tərənnüm edən qədim ellinlər olmuşdur. Onlar allah haqqında təsəvvürlərini gözəl insan obrazında ifadə edirdilər.

Qədim yunanlar ilahi varlıqların — allahların şərəfinə məbədlər inşa edərdilər. Yamac yerlərdə, dəniz sahilindəki sıldırımlı təpələrdə ucalan bu tikililər mənzərənin bəzəyinə çevrilərdi.

Afina sakinləri allahların şərəfinə təntənəli bayram,mərasimlər keçirərdilər. Panafineya adlanan bu bayramın ən vacib hissəsi isə dan yeri ağararkən ümumi təntənəli yürüş idi. Çələnglə bəzənmiş insanlar, at çapan gənclər, cavan qızlar hazırladıqları bəxşişləri, xüsusilə də ilahə Afina üçün nəzərdə tutulmuş böyük örtüyü məbədə gətirərdilər. Bayramın ən mühüm iştirakçıları, adətən, cavan qızlar idi. Onlar sevinc və şənlik rəmzi sayılırdı.

Qədim Yunanıstanda ən böyük bayram — Olimpiya oyunları hesab edilirdi. Bu zaman ölkədə "müqəddəs barışıq günü" elan olunurdu. Oyunlar üçün əzəmətli tikililər inşa edilərdi. Onlardan biri — ən qüdrətli allahın adını daşıyan Zevs məbədi idi.



LAYİHƏ

Memarlıq və heykəltəraşlıqda proporsiya dəqiqliyi və formaların tarazlığını yunan sənətkarları kimi mükəmməl ifadə edən çətin ki tapılsın. Bu gün də dünyanın bütün rəssamları təsvir sənətinin sirlərini yunan heykəllərinin surətlərini çəkməklə öyrənirlər.

Tanış ol. **Parfenon —** Qədim Yunanıstanın ən gözəl məbədi hesab olunur. Yunan dilində “İlahə Afina məbədi” deməkdir.

Afina şəhərinin təpəlik hissəsində — **Akropol** (“yuxarı şəhər” deməkdir) adlanan yerdə inşa olunub.

Akropol meydanında şəhərin himayədarı ilahə Afinanın əzəmətli heykəli ucalır.

Meydançada üzbəüz yerləşən, nisbətən kiçik ölçüyə malik **Erexteyon** məbədi Parfenonun əzəmətini daha da gücləndirir.







LAYİHƏ

Akropol — Afina şəhərinin təpəlik hissəsi

Bəs yunanların gündəlik məişəti haqqında haradan öyrənmək olar? Bu məlumatları insanlara **amfora** — yunan vazaları söyləyir. Qədim Yunanıstanın vazaları üzərindəki rəsmlər əsl sənət nümunələri sayılır.

## Tanış ol

Vazalar qırmızımtıl gildən hazırlanırdı. Əvvəllər vaza üzərində rəsm qara lakla çəkilirdi. Sonralar isə rəsmlər əksinə işlənməyə başlandı: təsvirin fonu qara lakla örtülür, fiqurlar isə gilin rəngində saxlanılırdı.



Vaza üzərindəki rəsmin fraqmenti



Qədim yunan vazaları

Heykəllər tikilinin memarlıq üslubunu daha ifadəli etdiyi kimi, vaza üzərindəki rəsmlər də qabın forma və gözəlliyini daha təsirli edirdi. Vaza bəzəyənlər adi məişət səhnələrini elə ustalıqla çəkirdilər ki, o, əsil sənət əsərinə çevrilirdi. Adi məişət səhnələrinin təsvirini poetik obrazlara çevirmək məharəti yalnız Ellada incəsənətinə məxsusdur.

- Qədim yunan tikililərinin səciyyəvi əlamətləri hansılardır?
- Yunan vazaları ellinlərin həyatı haqqında bizə hansı məlumatları çatdırır?

LAYİHƏ

Quaş, flomasterlər, pastel təbaşirlər

## Tapşırıq

- Sinif yoldaşlarınla birgə “Qədim Yunanıstanda Olimpiya oyunları” pannosunu yaradın. Təbiəti, məbədləri, insanların siluetini və Olimpiya oyunları zamanı qaliblərə təqdim edilən yunan vazalarını da göstərməyə çalışın. Görüləcək işi öz aranızda bölüşdürün.

# 27 ORTA ƏSR AVROPA ŞƏHƏRLƏRİ

## Qotik şəhərin obrazı

Avropanın bir çox şəhərləri orta əsrlərdə yaranmış və indiyədək öz qədim görkəmini qoruyub saxlamışdır. Bu, adətən, şəhərin mərkəzinə aiddir.

Orta əsr — qədim və bizim yaşadığımız müasir dövr arasındakı zaman kəsiyidir. Orta əsrdə Qərbi Avropada tikilmiş kilsələri **qotik kilsələr** adlandırırlar. Qotik memarlığın əsas məzmunu — səmaya doğru ucalmaqdır. Şəhər tikililərindən fərqli olaraq konusabənzər uclu qübbələr öz əzəməti ilə seçilirdi. Meydana baxan binanın aşağı hissəsində giriş qapıları var.

Kilsənin daş oymalı konstruksiyaları vitrajla — pəncərədə rəngli şüşələrlə bəzədilərdi. Vitraj — şəbəkəyə bənzəyir, lakin o, taxta parçası ilə deyil, metal bərkitmələrlə yığılır.

Dar, əyri küçələrdə yan-yana, sıx dayanan evlərin maili damları yuxarıya doğru ucalardı. Şəhərin bəzi küçələrində eyni sənətlə məşğul olan sənətkarlar yaşayardılar.

Belə küçələr həmin peşə ilə məşğul olanların adı ilə adlanardı. Orta əsr şəhərlərinin hər birində dəmirçilər, toxucular, dulusçular küçəsi olardı.

Ən gözəl və zəngin tikililər mərkəzi meydana baxardı.



Orta əsr şəhəri. *Limburq qardaşlarının çəkdiyi miniatür. Fraqment*

### Tanış ol




Notr-Dam kilsəsi. *Paris şəhəri*

Qotik kilsə şəhər həyatı üçün yaranmışdı. Vüqarlı qüllələr yuxarıya doğru can atır.

Fasadın* aşağı hissəsində müqəddəslərin heykəlləri olan portal yerləşir.

LAYİHƏ

*Fasad (fransız sözü) — sifət, obraz. Tikilinin qabağı, adətən, küçəyə baxan ön tərəfi.

Şəhər sakinləri — zadəganlar, ruhanilər, zabitlər, alimlər və sənətkarlar idi. Müxtəlif təbəqələrə mənsub olan bu insanların həyat tərzləri kimi, geyimləri də fərqli idi. Varlıların geyimi rəngarəng və zərif naxışlarla bəzədilərdi. Yoxsullara isə dəbdəbəli geyinmək qadağan olunmuşdu.

Geyimin rəngi və bəzəyi onun sahibinin kimliyini və hansı işlə məşğul olduğunu bildirərdi.

Memarlıqda olduğu kimi, geyimlərdə də şaquli xətlər üstünlük təşkil edərdi. Geyimlərin sərt və kontrast görkəmi insana sirli bir obraz verirdi. Təsadüfi deyil ki, sehrbazları, adətən, həmin dövrün personajları kimi təsvir edirlər.



Orta əsrlərdə ziyafət mərasimi



Orta əsr geyimləri

- Orta əsrdə Avropa şəhərlərinin görünüşü nə ilə fərqlənir?
- Qədim Azərbaycan şəhərini Avropa şəhərindən fərqləndirən nə idi?

LAYİHƏ

Akvarel, quaş, pastel təbaşirlər, flomasterlər

## Tapşırıq

- Sinif yoldaşlarınla birgə orta əsr Qərbi Avropa şəhərinin mərkəzi meydanının pannosunu yaradın. Qotik kilsəni və qarşısında gəzişən şəhər sakinlərini çəkməyi unutmayın.

## ÖZÜNÜ YOXLA

1. Tikililərin adı və onlar haqqında bildiklərini danış.







2. Verilmiş əşyalar hansı ölkənin incəsənətinə aiddir?











LAYİHƏ

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!

LAYİHƏ